# NECƏ OLDU Kİ, BİZ KİTAB OXUMAĞA BAŞLADIQ



Nübar ELDARQIZI

Biri vardı, biri yoxdu.Bir ölkə vardı və bu ölkənin çox ağıllı, müdrik bir padşahı vardı.

Padşah çox yerlərdə olmuşdu, çox inkişaf etmiş ölkələr görmüşdü.

Hər dəfə bir ölkəyə səfər edib gələndə onun qanı qaralır, canını dərd alırdı.

Vəziri,vəkili ondan kefsizliyinin səbəbini soruşanda dinməz,ancaq ah çəkərdi.

Günlərin bir günündə vəzirə maraq o qədər güc gəldi ki,cəkinə-çəkinə soruşdu:

-Qibleyi-aləm,siz niyə başqa ölkələrə gedib gələndə halınız dəyişir,qəm dəryasına qərq olunursuz?

Padşah diqqətlə vəzirə baxıb dedi:-Vəzir,bir çox işgüzar səfərlərə gedəndə sən də məni müşayiət edirsən.Sənə heç nə qəribə gəlmir?

Vəzir tutuldu:

-Nə,məsələn?..

Padşah dərindən ah çəkib üzünü göyə tutdu və ürəyində Allaha şikayət elədi:-"Ya Allah, görursən də mən kimlərlə işləməyə məcburam..."

Padşah o qədər yumşaq adam idi ki,nəinki vəziri,heç qarışqanı da incitməzdi.Ona görə ürəyini susdurub dilinə bu sözləri gətirdi:

-Ey vəzirim,getdiyimiz ölkələrdə bizi protokol qaydalarına uyğun qarşılayır,müxtəlif mərasimlər,görüslər düzənləyir, xalqın nümayəndələri ilə görüşdürürlər...Müşahidə eləmişəm ki,orda adamların çoxu savadlı,oxumuş,ziyalıdırlar.Niyə bizim rəiyyət oxumur? Necə edək ki,xalqımız kitab oxusun?

Vəzir çaşıb qaldı.İstədi desin ki,şahım,xalqın cahil,savadsız olmasının nəyi pisdir ki? Nə istəyirik,onu da edirik,hansı qanunu istəsək işə salırıq,öl desək ölürlər,qal desək,qalırlar...

Demədi.

Qoca padşah kimi o da çox yaxşı adam idi.Qəlb qırmaqdansa öz başını divara vurub qırardı.Bəli,bu ölkənin başında dayananlar hamsı belə nəcib insanlar idi!

Padşahla vəzir bir xeyli düşündulər,bir xeyli də məsləhət -məşvərətdən sonra belə qərara gəldilər ki,həvəsdi-bəsdi dövlət işləri ilə məşğul olduq,indi də bir az tum çırtlayaq,"muşqulat"edək.

Əmr etdilər ki,saraya ən reklamlı hansıdırsa,günəbaxan,ağ boranı tumlarından gətirsinlər.

Tum "paçka"sını cıranda yerə bir kağız düşdü.Bir hərf vardı o kağızda:-A!

Padşah da,vəzir də bir ağızdan səsləndilər:-Aaa...bu nədi?

Bu zaman saraya varid olan vəkil işi gərəyi "Tum" şirkətinin adından məsələni belə izah elədi:

-Padşah sağ olsun,demək, bu tumsatanlar yaxşı alış-veriş etsinlər deyə belə bir şey fikirləşiblər ki,"-kim milyoner olmaq istəyir"sə,əlifbanın bütün hərflərini toplasınlar.

-Eee?-padşah soruşdu.

-E-si odur ki,şahım,bütün millət axşamacan tum çırtlayır.İnanırsız,şəhərin küçələri tum qabığı ilə örtülüb.İnsanlar elə zənn edir ki,yaxın gələcəkdə ölkədə hamı milyoner olacaq!

Vəkilin parlayan gözlərinə baxan padşahın beynində sanki şimşək çaxdı.

-Evrika!-deyə qışqırdı.

Vəzir və vəkil əlbəttə,evrika sözünün mənasın bilmirdilər,amma,bildikləri bir şey vardı ki, padşaha itaət bütün dinlərdə vacib əməllərdən sayılır.Bunun müqabilində o dünyada olmasa da,bu dünyada cənnəti qazanırsan!

Padşah onların sual dolu baxışlarına cavab olaraq dedi: - Bildim xalqa necə kitab oxutdurmaq olar. Demək belə...

1.Əmr edirəm, ölkədə çoxlu nağıl kitabları çap olunsun!

2.Kitabların müxtəlif yerlərində şifrəli sözlər yazılsın!

3.Əhaliyə xəbər verilsin ki,şifrələri kim çözsə, növbəti ənənəvi padşahlıq quşqonması mərasimində iştirak etmək hüququ qazanacaqdır...

Padşahın bu sözləri vəzir və vəkili o qədər duyğulandırdı ki,ikisi də ağlamağa başladı.Vəzir əllərini göyə qaldırdı: -Allah,biz nə qədər xoşbəxt bəndələrik,bizə belə humanist padşah qismət eləmisən!

-Qoy sözümü bitirim,sonra...

Padşahın yüngül məzəmməti vəziri sərvaxt olmağa çağırdı.

- Əstəğfürullah, buyurun,padşah həzrətləri, buyurun...

-Şahinimdən muğayat olun!

İşıq sürəti ilə vəkilin beynində ilk padşahlıq quşqonması mərasimi canlandı.

O zaman hələ belə bir ölkə yox idi.Yəni başı pozuq,sürü halında yaşayan bir toplum vardı.Onları heç kəs saymaz,adam yerinə qoyub ərazilərinə hücum belə etməzdilər...İndiki padşah yolkəsənlərin qəzəbinə uğramış bir karvanın sağ qalan yeganə nümayəndəsi idi ki,camaata qoşulub bir gün öz ölkəsinə dönmək xəyalı ilə möcüzəvi qutuluş gözləyirdi.Bekarçılıqdan adamlarla öz ölkəsi,oradakı qayda-qanunlar haqqında hər gün o qədər danışırdı,onlar da ağızlarının suyu axa-axa dinləyirdilər.Belə-belə...camaat qərara gəldi ki,onlar da özlərinə bir padşah seçsinlər.Bunun üçün toplaşdıqları gün Allahın hikmətinə bax ki,hardansa bir quş peyda oldu və o boyda yerli camaatı qoyub gəlib bu gəlmə adamın başına qondu.Düzdü,adamın başını, ayıb olmasın,pislədi-,amma kim idi buna məhəl qoyan!(Bax elə bu günəcən el arasında quş birinin başına batıranda hadisəni bəxti gətirmək, xoşbəxtlik əlaməti sayırlar!)

Sonrakı seçimlərdə çox ağıllı və uzaqgörən olduğu üçün padşah işini heç vaxt şansa buraxmadı.-Lap əvvəllər padşahı "təyin etmək"üçün göyə göyərçin buraxardılar.Padşahın başına qoyduğu papağın ortasına bir ovuc dən töküldüyünü əhali heç zaman bilmədi...Daha sonralar işin ciddiliyini nəzərə alaraq göyərçini şahinlə əvəz etdilər.

Vəzir də,vəkil çox arif adam idilər və işarəni göydə qapdılar.Bu o demək idi ki,bu seçkilərdə tacın ortasına bir parca ət qoyacaqlar...

İllərin vərdişi ilə hər ikisi eyni anda, sinxron şəkildə təzim etdilər və iki adamdan bir səs çıxdı:

-Padşahım, çox yaşa!

Bir azdan çaparlar şəhərin dörd tərəfində bütün dayanacaqlara fərmanın kserokopyalarını yapışdırırdılar və bütün telefonlara ölkənin birinci mobil operatorundan səsli mesajlar göndərildi:

-Ey əhali,duyduq,duymadıq deməyin!..

Və beləliklə, padşah quşqonması mərasiminə qalan bir neçə il müddətində camaat gecə-gündüz o qədər nağıl oxudu ki,artıq kitab oxumağın tiryakisinə çevridilər...

Nağıl oxumaq həm də adamları çox xoşbəxt edirdi.Bir də görürdün gülə-gülə nağılın sonunda göydən düşəcək almaların davasını edirlər.

-Biri mənim, biri mənim...

Söz-söhbət olmasın deyə biz nağılın sonunda göydən 3 kitab düşməsini məsləhət bildik.

-Biri mənim!

**3 Şub 2024 Cmt 20:21 tarihinde**
**Nubar Eldarqızı <neldarqizi@gmail.com>**
**şunu yazdı:**

***P.S. Salam, gününüz xeyirli olsun, əziz Əli Rza müəllim və "Kredo"qəzetini araya-ərsəyə gətirənlər! Çoxdandır ürəyimdən sizə şeir göndərmək keçir. Düşünürəm, "Kredo"elə qəzetdir, onu oxuyanlar elə insanlardır ki, mən məhz həmin kəsimə xitab etmək, özümü tanıdıb şeirlərimi sevdirmək istəyirəm. Və ona görə məsuliyyətim bir qədər də artır.***

***Nəhayət ki, bəzi şeirləri seçib ayırdım, əgər siz də bəyəndiklərinizi dərc edərsinizsə, çox şad olaram. Qabaqcadan minnətdarlığımı bildirirəm.***

***Hörmətlə: Nübar Eldarqızı.***

***03.02.24***

## XAOS

Hər şeyin əvvəlinə-sonu yazılıb.
"Yararlılıq müddəti" insanın alnına çizilib.
Ona görə inanmıram möcüzəyə...
Üsyankaram hər şeyə...
Sevgim - özüm kimidir;
heç vaxt yerinə düşmədi...
Mən də elə tərsəm,
Heç yerimi dəyişmədim!..
Ədalət məhkəmələrini yox,
-İlahi ədalətii çox sevirəm,
Sonda bütün fironlar,krallar,padşahlar
haqqın lənətinə qovuşur!
Oxşar taleli adamlar bir-birinə qonşudur:
Cənnətliklər, cəhənnəmliklər və nöqtələr...
Amma hər yerdə bir pik nöqtəsi var!
Nida...

* * *

-Bütün ölülər müflis olmuş dirilərdir!
Çılpaq ruh qalxır göyə...
İnsanlar bir gün belə dözmür sevdiyinin ölüsünə;
Ya torpağa göndərirlər,ya da krematoriyə...
Ona görə,
Özləmişəm "yox"olmağı!
Doğulmazdan əvvəl hər şey,-YOX idi!
Var olduq, olmadıq,
"Ömür" deyilən başımıza min corab toxudu.
-Bir yanda bəsirət,bir yanda cəhalət...
Bir tərəfdə qüdrət,bir tərəfdə nifrət...
VƏ BİR QRAM AZADLIQ üçün çəkilən zillət!..
Sonra...
Düşüncələrini qəlbinə, - ev həbsinə göndər və sus!
SOS!
-İnsanlıqda düşüş, - qiymətdə endirim!
-Vicdan çatışmazlığı,
qeyrətdə endirim...
Və budur dünyanın mənzərəsi:
-Kölələrin sonsuz narazılığı,
asilərin ümidsiz mübarizəsi,
mütilərin şükranlığı...
Ən pisi gecələrin deyil,səhərlərin qaranlığı...
Və daha da pisi,-
Tənhalıqdan şikayət də bir dəb...
-Əsil yalnızlığı bir sən bilirsən,
ya Rəbb!!!

**Epiloq:**

-Bizi ancaq inandıqlarımız aldadır...
Bizi ancaq sevdiklərimiz ağladır...
Bizi ancaq yazdıqlarımız anladır...

## PİS ŞEİR

Mən yenə göylərə dava açmışam,
Sən ordasan, məsləhət ver,ay Dədə,
Yaz,-dedilər, yazdım, hanı oxuyan?
Şikayətə baxan yoxdu göydə də?!

Bir vəsiyyət qoymadız ki,gedəndə,
Anam "laldı", sənin nəydi bə dərdin?
Uman yerim, küsən yerim, -atamdın,-
Deməsən də öldün,-desən ölərdin?!

Gedişiniz belə vacib idisə,
Yaşamağı öyrədərdiz köçərdiz!..
"Həyat dərsi" boş keçmədi,
həftədə,- Bir gün
ata-ana dərsi keçərdiz!..

Böyük yoxdu üstümüzdə,başbilən,
Təzə-təzə öyrənirdik yol-yolaq.
Başımıza sığal çəkib,oxşayıb
"Sağ ol!"-deyən olmadı ki,sağ olaq...

İllər boyu ha aradıq,tapmadıq,
Doğruluqdu,ədalətdi...haqq hanı?!
Harda yağlı yemək varsa,bir harın,
Boynuyoğun arxasında yayxanıb..

Haram yeyən,müftə yeyən başdadı,
Halalları sürüm-sürüm sürünür.
Bəlkə orda halam-haram başqadı?!
9 bəlkə,ordan 6 görünür?

Hamı yazır;Allah tale,-biz şeir!
Son nöqtəni qoyan yenə göydədir!
Mən yazdığım,- uzaq başı,pis şeir...
Sən yazdığın nədir, belə göynədir?!